# Şəhidlik zirvəsində

**Həyatda sevənlər də, sevilənlər də çox olur, əməli ilə, hünər və cəsarəti ilə, qayğıkeşlik və işgüzarlığı, elə, obaya, vətənə, torpağa sədaqəti, məhəbbəti ilə ürəklərdə yaşayanlar da. Qırx dörd günlük Vətən müharibəsi də məhz bu cür igidlərin, vətənpərvərlərin şücaətləri, düşmənə olan sonsuz nifrətləri, mübarizlikləri, Azərbaycanımızın rəşadətli ordusunun zəfəri ilə qurtardı. Otuz ilə yaxın düşmənin işğalı altında olan Qarabağımızın torpaqları işğaldan azad olundu. Bu zəfər tarixinə şanlı səhifələr yazıb şəhidlik zirvəsinə ucalan üç minə yaxın şəhidlərin sırasında Oğuz və Şəki rayonunun igidlərinin də adları əbədi həkk olunub.**



## Oğuz: iki ünvanda yaşayan igid

Rayonun Dəymədərə kəndində doğulub boya-başa çatan Abit Məmmədov Vətən müharibəsinin zəfər tarixini yazan minlərlə igidlərdən biridir. Döyüş yolu qısa olsa da, əbədiləşib, minlərlə azərbaycanlı gənci kimi, o da uca zirvədə özünə ömürlük yuva qurub. Bəli, indi Abitin adına iki ünvan var: biri anadan olub gün-güzəran keçirdiyi ana-ata qayğısı, dəstəyi ilə qurub-yaratdığı Dəymədərə kəndindəki evi, digəri isə igidliyi, cəsurluğu, vətənpərvərliyi ilə əbədi qazandığı şəhidlik zirvəsi, şəhidlik ünvanı. Ata ünvanına gəlib Asif atanın, Rübabə ananın oğul itkili ürəklərinə təsəlli verənlər, Abitə olan sevgisini, məhəbbətini onlu da, onsuz da ürəyinin başında gəzdirən Səma ilə həmsöhbət olanlar, Abitin bircə əmanəti olan oğlu Əlini qucaqlarında oxşaya-oxşaya onun nəfəsini bu körpədən alanlar görürlər ki, bu ocaqda dövlətimizin dünəninə, bu gününə böyük hörməti daha nurlu, firavan sabahına möhkəm inam var.

Hərbi xidmətini başa vurub doğma kəndinə gəldiyi, ailənin dolanışığı üçün atanın, ananın dəstəyi olduğu, qəbələli qızı Səma ilə ailə qurub ömür-gün sürdüyü cəmi ikicə il idi. Günü, güzəranı nə qədər xoş keçsə də, həmişə ürəyində Qarabağın azadlığı, o torpaqlardan yenə azərbaycanlı nəfəsinin, ətrinin gələcəyi günü səbirsizliklə gözləyirdi. Buna görə də o da minlərlə azərbaycanlı gənci kimi, düşmənin başını əzib, torpaqları işğaldan birdəfəlik azad etmək arzusuyla cəbhəyə yollandı. Rəşadətli ordumuz qələbə qazandı, hamının Qarabağ arzusu çin oldu. Üç minə yaxın azərbaycanlı şəhidi kimi Abit də bu arzusuna, istəyinə, qələbəsinə özü üçün əbədi ünvan seçdiyi şəhidlik zirvəsində qovuşdu. Onun döyüş yolu qısa olsa da, ürəklərdə əbədiləşdi, ömürlük unudulmayan xatirəyə çevrildi. O xatirələr indi Asif atanın, Rübabə ananın, cəmi ikicə il ömür sürdüyü Səmanın, bütünlükdə Abitsevənlərin qəlbində əbədiləşdi. Ölümündən bir neçə ay sonra, bu ilin ilk ayının ilk günündə doqquz ayı tamam olan və ad gününü atasının güllü-çiçəkli, əzəmətli məzarı üstündə keçirən Əli isə bu şərəfli ucalığı böyüyüb ərsəyə çatanda daha yaxşı biləcək, başını dik tutub vüqarla, qürurla gəzəcək.

Yuxarıda qələmə aldığımız xatirələri qışın şaxtalı, boranlı, hər yanı ağ örpəkli günlərinin birində şəhid Abitin valideynləri ilə görüşümüzdə söyləmişdilər. Dözə bilmirəm hər gün evimdə, həyətimdə axtarıram, axşamlar işdən qayıdanda oğlu Əlini qucağında xeyli gəzdirəndən sonra rahatlandığı anları xəyalımda canlandırır və hər gün yolunu onun məzarından salıram. Bu soyuq günlərdə gedib onunla həmsöhbət oluram, üşüyüb-üşümədiyini soruşuram. Axı, ana qəlbidir, dözmürəm, deyirəm birdən soyuqlayar balam.

Bəli, bütün bunları göz yaşlarını gecələr yanaqlarına, gündüzlər içlərinə axıdan Rübabə ananın, Asif atanın, Aygün bacısının söz-söhbətindən, nə qədər kövrəkləşsələr də, bir o qədər qürurlu görünmələrindən oxudum.

Şəhidlər heç vaxt unudulmur. Oğuzun digər şəhidləri kimi, Abit Məmmədovun ailəsinə də dövlətin yardımı, qayğısı unudulmur. Döyüş cəbhəsindəki igidliklərinə görə verilən "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları isə şəhid Abit Məmmədovun ən uca zirvədəki evinin əbədi və heç vaxt unudulmayan yadigarlarıdır.

## Şəki: Vətən eşqi, torpaq sevgisi ilə döyünən ürək



O da minlərlə azərbaycanlı oğlu kimi, həmişə ürəyində bu arzularla gəzib dolaşmışdı: görəsən işğalda olan Qarabağın azadlığını öz gözləri ilə görmək, Şuşaya hay çəkə-çəkə girmək və bununla da əzizlərini, elini, obasını şad xəbərlərlə sevindirmək ona da nəsib olacaqmı. Şəki şəhərindəki 20 nömrəli tam orta məktəbin məzunu otuz altı yaşlı İbrahim Məmmədov 2003-2004-cü illərdə həqiqi hərbi xidmətini elə bu arzularla başa vurandan sonra hərbçi olmaq fikrindən daşınmadı. Bu maraqla, istəklə o, altı aylıq hərbi kurs keçdi. 2005-ci ildən Xızıdakı N saylı xüsusi təyinatlı hərbi hissədə gizir kimi xidmətini davam etdirdi. 2016-cı ilin Aprel döyüşlərinə qatılıb düşmənə qarşı vuruşan Azərbaycan igidlərindən biri də İbrahim oldu.

Vətən eşqi, torpaq sevgisi, düşmənə nifrət onu da bir gün olsun rahat buraxmırdı. Həmişə söhbətinin əvvəli də, sonu da bu fikirlə bitirdi: nəyin bahasına olursa olsun Qarabağımız, erməni işğalında olan torpaqlarımız azad olunmalı, müstəqil Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. Orta məktəb müəllimləri Sərnaz Nizaməddinova və İradə Əliyevanın İbrahim haqqında yazılan xatirələrində oxuyuruq:

- Onun haqqında həmişə söhbət düşəndə kövrəlirik. Uşaq şıltaqlığı, oxumaq həvəsi, yoldaşları ilə ünsiyyəti, vətənpərvərliyi, millətsevərliyi gözlərimiz qarşısından kino lenti kimi gəlib keçir. Yuxarı sinifdə oxuyanda gələcəkdə hərbçi olmaq, istədiyini açıq bildirmişdi. Sinif yoldaşları da, elə biz müəllimləri də onun bu sahəyə olan marağını, arzularını sevə-sevə dinləyirdik.

Sinif yoldaşları Tərlan Xəlilov, Taleh Musayev, Zaur Həbibullayev İbrahimin yaxşı övlad, bacarıqlı insan, sədaqətli dost olduğunu, onun Vətən müharibəsindəki cəsurluğundan qürur duyduqlarını, xatirəsini daim qəlblərində yaşadacaqlarını söylədilər.

2020-ci ilin sentyabrın 27-dən cəbhə bölgəsinə yollanıb Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut və Laçın istiqamətində gedən döyüşlərdəki igidlikləri ilə tariximizə unudulmaz səhifələr yazdı. Laçın istiqamətində gedən döyüşlərin birində oktyabrın 25-də ən yüksək qəhrəmanlıq zirvəsində, şəhidlik zirvəsində özünə əbədi məkan saldı. Bəli, şəkili Nakam kişinin oğlu İbrahim dünyadan qəhrəmanlıqla köçmüş, erməni düşmənlərinin başını əzməklə torpağa qovuşmuşdur. Rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsi hamı kimi şəhidlik zirvəsində əbədiləşən İbrahimin də ruhunu nakam qoymamış, arzularına qovuşdurmuşdur.

Vətən müharibəsində göstərdiyi şücaətə görə "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Bu gün bütün şəkililər, o cümlədən İbrahimin atası Nakam kişinin beşinci sinifdə oxuyan oğlu Elvinin, dünyasını dəyişən anasının adını daşıyan ikinci sinif şagirdi qızı Mətanətin ömür kitablarına daha bir unudulmaz səhifə - İbrahimin şəhidlik zirvəsindən soraq verən bir səhifə də yazıldı. Bu məqamda Xalq şairi Zəlimxan Yaqubun şeirlərinin birində dediyi: - Qulluqçular çox olsa da, ən axırda qulluğunda ölüm durur ömrümüzün - fikirlərini xatırladım. İbrahim kimi, minlərlə şəhidimiz qulluqlarında duran şərəfli, unudulmaz ölümləri ilə şəhidlik zirvəsində arzularına qovuşdular. Vətən müharibəsini qələbə ilə başa vurdular.

**Rasim AMANOV,**
**"Respublika".**